PARADIGMA, No.4, 2025, səh.55-62
https://doi.org/10.30546/30015.2025.01.4.1026

# BAHARLI VƏ BAYANDURLU MÜNASİBƏTLƏRİ: TARİXİ-SİYASİ ASPEKTDƏ TƏDQİQİ

**A.R. Şahbalayeva**
Azərbaycan Universiteti, Ceyhun Hacıbəyli 71, Bakı, Azərbaycan
e-mail: Aytaj.Shahbalayeva@student.au.edu.az

**Xülasə:** Məqalədə XIV-XV əsrlərdə Azərbaycan tarixində mühüm yer tutan Baharlı (Qaraqoyunlu) və Bayandurlu (Ağqoyunlu) tayfa birlikləri arasındakı münasibətlər tarixi mənbələr əsasında araşdırılır. Tədqiqat göstərir ki, hər iki tayfa eyni oğuz kökünə mənsub olsa da, aralarındakı əlaqələr əsasən ərazi ixtilafları, siyasi nüfuz uğrunda mübarizə və strateji bölgələrə sahib olmaq istəyi ilə xarakterizə olunur. Araşdırma nəticəsində müəyyən olunur ki, Baharlı-Bayandurlu qarşıdurması yalnız tayfa münaqişəsi deyil, həm də XV əsr Azərbaycan dövlətçiliyini formalaşdıran başlıca siyasi proseslərdən biri olmuşdur.

**Açar sözləri:** Baharlı (Qaraqoyunlu), Bayandurlu (Ağqoyunlu), XV əsr Azərbaycan tarixi, Muş döyüşü, tayfa münasibətləri.

## Giriş

Baharlı və Bayandurlu adlanan oğuz mənşəli tayfa birləşmələri XIII əsrdən etibarən Anadoluda yarımköçəri həyat sürürdülər. Qaraqoyunluların mərkəzi vilayəti Van gölünün şimalındakı Ərciş, Ağqoyunluların cəmləşdiyi bölgə isə Diyarbəkir idi [2, s.71]. Qeyd edək ki, Qaraqoyunlu dövlətini Baharlı sülaləsi, Ağqoyunlu dövlətini isə Bayandurlular idarə edirdi.

## Tədqiqat

Baharlı və Bayandurlu əlaqələrinin araşdırılması təkcə tarixi hadisələrin izahı ilə kifayətlənmir, həmçinin Azərbaycan dövlətçiliyinin formalaşmasında tayfa birliyinin rolunun dərk edilməsi üçün mühüm elmi əhəmiyyət kəsb edir. Tofiq Nəcəfli öz məqaləsində qeyd edir ki, XV yüzillik dövlətçilik tariximizin dönüş nöqtəsi hesab olunur. O, bu fikrini onunla əsaslandırır ki, məhz XV əsrin əvvəlində ölkəmizdə yadelli ağalığına son qoyulur və dövlətçilik ənənəmiz bərpa olunur (Burada yadelli ağalığı dedikdə XIV sonlarında Azərbaycan uğrunda mübarizə aparan Teymurilər, Qızıl Orda, Cəlairilər nəzərdə tutulurdu). Qaraqoyunlu və Ağqoyunlu dövlətinin yaranması ilə oğuzlar təkcə etnik baxımdan deyil, eyni zamanda regionda siyasi üstünlük qazandılar [6, s.35].

Bu dövr haqqında tarixi mənbələrə nəzər yetirdikdə aydın olur ki, iki tayfa arasındakı münasibətlər daha çox qarşıdurma və gərginliklə müşahidə olunur. Bu qarşıdurmanı tarixçilər müxtəlif səbəblərdə görürlər. Göstərilən yanaşmaların hər birini daha ətraflı təhlil edək.

Türkiyəli tarixçi Faruq Sümer qeyd edir ki, onlar arasındakı münaqişənin əsas səbəbi ərazi ixtilafları və ya üstünlük uğrunda mübarizə olmuşdur. Tofiq Nəcəfli bildirir ki, bu fikri

İ.P.Petruşevski də təsdiqləyir və qeyd edir ki, XIV əsrin sonunda bu türkman tayfaları arasında münaqişənin əsas səbəbi yeni torpaqlar, otlaqlar və qənimət ələ keçirmək istəyi idi [5, s.106].

Digər bir Türkiyə tarixçisi M.X.Yınanç Baharlılarla Bayandurlular arasındaki mübarizənin başlamasını fərqli səbəblərdə görür. Bildiyimiz kimi XIV əsrin 30-cu illərində Elxanilər dövləti zəifləməyə başlamış və regionda Cəlairilər, Çobanilər, Sutay və digər xanədanların bir biri ilə mübarizəsi başladı. Bu zaman Baharlı və Bayandurlu tayfaları isə tərəf seçərək siyasi proseslərə qoşuldular. Belə ki bu mübarizədə Baharlılar Cəlairi xanədanının, Bayandurlular isə bu xanədanlığa düşmən olan Sutayoğullarının tərfindən çıxış edirdilər. Beləliklə, uzun illər davam edəcək bu mübarizə iki eyni kökdən olan bu sülalələrinin sonrakı illərdə də bir birinə qarşı düşmən münasibət bəsləməsinə səbəb olacaqdı [5, s.106].

Bəzi tarixçilər isə Baharlı və Bayandurlular arasındakı münaqişənin səbəbini dini aspektlərdə görür. Onların fikrincə Baharlıların şiə, Bayandurlular isə sünni məzhəbinə xidmət etməsi tərəflər arasında münaqişəyə səbəb olub [1, s.61]. Həmin fikri V.A.Qordlevski, P.Petruşevski, F.Fərzliyev də müdafiə edir [5, s.106]. Lakin onu da qeyd etmək lazımdır ki, bəhs olunan dövrdə Baharlıların şiə məzhəbinə qulluq etməsinə dair hər hansı bir dəlilə rast gəlinmir. Həmin dövrdə Qaraqoyunluların əsas rəqibləri olan Teymuri və Ağqoyunlu sarayında olan tarixçilər Qaraqoyunlulara qarşı mübarizədə şiəlikdən bir təbliğat vasitəsi kimi istifadə edirdilər. Bununla da onlar öz sünni əhalisinin Qaraqoyunlulara meyl etməsinin qarşısını almağa çalışırdılar. G. Karademir bu fikri öz məqaləsində bu cür əsaslandırır: “Kara Koyunlu Türkmenlerin Sünni inanışa meylettiklerini onların kestiği sikkeler üzerindeki Çihar Yar isimlerinden rahatlıkla anlaşılmaktadır. Çihar Yar: Farsça dört sevgili anlamına gelmektedir ve bunlar, İslam’ın Dört halifesidir. Kara Koyunlular Sünniliği reddetmeyen aksine Sünniliğe yakın bir dini inancı vardı” [4, s.21].

Onu da bildirmək istəyirik ki, bunlar içində ən tutarlı fikir ərazi uğrunda mübarizə hesab olunur. Tarixin bütün dövrlərində olduğu kimi bu dövrdə də dövlətlərin əsas marağı regionda siyasi üstünlüyə sahib olmaq, yeni torpaqlar ələ keçirmək və ticarət yollarına nəzarət etmək istəyi idi.

Bayandurlu hakimləri Baharlı tayfa birliyinin getdikcə güclənməsi ilə heç cür razılaşa bilmirdilər. XIV əsrin sonlarında Ərzincana sahib olmaq uğrunda iki tayfa birliyi arasında şiddətli mübarizə gedirdi. Ərzincan XIV əsrin sonlarında müstəqil, lakin strateji baxımdan xeyli əhəmiyyətli bir bəylik idi.

Azərbaycan XIV əsrin 80-90-cı illərində Əmir Teymurun yürüşlərinə məruz qaldı. Bu hadisə Baharlı və Bayandurlular arasındakı münasibətləri daha da kəskinləşdirdi. Buna səbəb Bayandurluların başçısı olan Qara Yuluq Osman bəyin həm Baharlılara, həm də Osmanlılara

düşmən münasibət bəsləməsi idi. Belə olan halda buranı ələ keçirməyə gələn Əmir Teymuru düşmən kimi yox, bir müttəfiq kimi görürdü [1, s.61]. Həmçinin Osman bəyin 1402-ci ildə Ankara döyüşündə Əmir Teymurun tərəfində fəal iştirakı ona Diyarbəkiri qazandırdı. Nəticədə Əmir Teymur Diyarbəkir hakimliyini Qara Yuluq Osman bəyə vermişdi. Teymur Azərbaycanı tərk edər etməz Bayandurlu hakimi öz mövqeyini Diyarbəkirdə möhkəmləndirmişdir [3, s.2].

1405-ci ildə Teymurun vəfatı ilə böyük imperiyanın daxilində taxt-tac uğrunda mübarizə başlandı. Qaraqoyunluların başçısı Qara Yusif artıq uzun müddətdən bəri Teymurilərlə mübarizə aparırdı. O, əvvəlcə Teymurun yürüşləri nəticəsində bölgəni tərk etmək məcburiyyətində qalsa da, Teymurun ölümündən sonra yenidən fəallaşaraq Azərbaycan uğrunda mübarizəyə başladı.

Bundan sonrakı dövrlərə nəzər yetirdikdə görərik ki, Qara Yusif Baharlı və Bayandurlular arasındakı ədavətə son qoymaq istəyirdi. Məhz bu səbəblə Qara Yuluq Osman bəyə məktub göndərərək münasibətləri yaxşılaşdırmaq istədiyini bildirsə də, qarşı tərəf bu məsələyə müsbət yanaşmamışdı. Bunun nəticəsi idi ki, 1406-cı ildə onlar yenidən qarşı-qarşıya gəlmiş, nəticədə isə tərəflər razılığa gəlmək məcburiyyətində qalmışdı [5, s.111].

1406-cı ildə Qara Yusif Teymuri ordularına qarşı çıxaraq Şənbi-Qazanda onların bölgədəki təsirini zəiflətməyə nail oldu. Həmin dövrdə Teymurilər arasında taxt uğrunda mübarizə dərinləşdiyindən onlar Baharlılara qarşı ciddi müqavimət göstərə bilmirdilər. Bu şəraitdə Qara Yusif Təbrizi ələ keçirdi və burada hakimiyyətini möhkəmləndirdi. Təbrizin alınması Qaraqoyunluların regionda siyasi nüfuzunu artırdı [8, s.378].

1408-ci ildə Qaraqoyunlu ilə Teymurilər arasında münasibətlər artıq gərgin bir mərhələyə çatmışdı. Artıq Baharlılar Teymuri təsirindən çıxmaq və müstəqil güc kimi formalaşmaq istəyirdilər. Tərəflər arasında döyüş qaçınılmaz idi. Nəhayət 1408-ci ilin aprelində Qara Yusif və Teymuri hökmdarı Miranşah arasında Sərdrud adlanan yerdə döyüş baş verdi. Döyüş Baharlıların qələbəsi ilə nəticələndi və Teymurilərin Azərbaycandakı hakimiyyətinə son qoyuldu. Bu Baharlı tarixində olduqca önəmli hadisə idi [8, s.378].

Beləliklə Azərbaycanın cənub torpaqlarında möhkəmlənən Baharlılar paytaxtı Təbriz olan Qaraqoyunlu dövlətinin əsasını qoydu. Baş verən bütün bu hadisələr təbii ki, Bayandurluları narahat etməyə bilməzdi. Buna görə də Qara Yuluq Osman bəy 1409-cu ildə Mardin üzərinə hücum edir. Lakin döyüş onun istədiyi kimi bitmədi və sonda Bayandurlu hakimi məğlub olub döyüş meydanını tərk etmək məcburiyyətində qaldı.[5, s.111]

Qara Yuluq Osman bəy Baharlılara qarşı tək mübarizə aparmağın çətinliyini başa düşürdü. Buna görədə o, ən böyük rəqibi olan Qara Yusifə qarşı mübarizədə Teymuri Şahruxun köməyindən yararlanmaq istəyirdi. Həmçinin onun Şahruxa göndərdiyi məktub (məktubda

Osman bəy Şahruxu Baharlı və Osmanlılara qarşı müharibəyə başlamağa təhrik edirdi) Qara Yusifin əlinə keçdi. Nəticədə tərəflər arasında 1417-ci ildə döyüş baş verir və nəhayətində sülh müqaviləsi imzalanır. Müqaviləyə əsasən, Sağur qalası Baharlılara təhvil verilir, bunun qarşılığında isə Bayandurlular 1 mln dirhəm pul, 100 at və dəvə aldı. Lakin 1418-ci ildə münasibətlər yenidən gərginləşdi. Teymuri Şahruxun təhriki ilə hücuma keçən Qara Yuluq Osman bəy Amid yaxınlığında məğlub oldu [5, s.113].

Bundan sonrakı dövrlərdə də Baharlı-Bayandurlu münasibətlərində gərginlik  davam edəcəkedəcədi. Xüsusilə Qara Yusifin ölümü (1420) regiondakı vəziyyəti daha da mürəkkəbləşdirdi. Qaraqoyunlu əmrləri arasında münasibətlər gərginləşdi, hakimiyyətə Qara Yusifin oğlu Qara İsgəndər gəldi. Bununla da Qaraqoyunluların həm Ağqoyunlularla həm də Teymurilərlə münasibəti daha da pisləşdi. Belə ki, qısa müddət ərzində Təbriz Teymuri Baysunqurun, Bayandurlu Əli bəyin, Baharlı İsfahan Mirzənin və Baharlı Qara İsgəndərin əlinə keçdi [1, s.65].

Teymuri Şahruxun Qaraqoyunlular üzərinə hücum xəbərini eşidən Qara Osman vəziyyəti öz xeyrinə dəyişmək üçün Mardin üzərinə hücuma keçdi, lakin heç bir uğur qazana bilmədi. Bu zaman Ağqoyunlularla Qaraqoyunlular arasında Nusaybin yaxınlığında baş verən döyüşdə Qara Yuluq Osman bəy ağır məğlubiyyətə uğradı, Qara İsgəndər qalib gəldi. Mənbələrin məlumatına görə, Şahruxun bu yürüşü bölgədəki siyasi vəziyyəti daha da gərginləşdirirdi [5, s.114].

1421-ci ilin iyulun sonu avqustun  əvvəlində Alaşkert vadisində Qara isgəndərlə Teymuri Şahruxun qoşunları üz üzə gəldi. Baş verən döyüşdə sayca üstün olan Teymuri qoşunları qələbə qazandı. Bu döyüşdə Baharlılardan qisas almağa çalışan Qara Osman da iştirak etmişdi (hətta bəzi mənbələrdə Şahruxu Baharlılar qarşısı təhrik edənin Qara Osman olduğu deyilir) [5, s.115].

Buna baxmayaraq Termuri Şahrux atasından fərqli siyasət yeridirdi. O, zəbt etdiyi əraziləri öz dövlətinin tərkibinə qatmırdı. Bunun əvəzinə hakimiyyətini həmin ərazilərdə tanıtmaqla və xərac almaqla yetinirdi. Bunun nəticəsi idi ki, Teymurilər ölkəni tərk etdikdən sonra Baharlılar yenidən Təbrizdə hakimiyyətini bərpa etmişdi.

1421-ci il Alaşkert döyüşündə  Baharlıların məğlubiyyəti onların regionda tək söz sahibi olmadığını göstərdi. Həmçinin eyni etnik kimliyə sahib Bayandurluların bu qarşıdurmada iştirakı tayfalararası münasibətlərdə gərginliyin davam etdiyini göstərirdi.

1432-ci ildə Mardin hələ də tərəflər arasında münaqişə obyekti idi. Uzun mübarizədən sonra nəhayət Qara Yuluq Osman Ardını Qaraqoyunlu valisindən almışdı. Şahruxun Azərbaycanı ələ keçirmək planlarında Qara Osman az rol oynamamışdı. 1435-ci ildə Şahrux Azərbaycana doğru hərəkət etdi. Şirvanşah və Teymurilərin birləşmiş qüvvələrinin Təbrizə

hücumunu eşidən Qara İsgəndər Anadoluya qaçdı. Şahrux Qara Osmanla əlaqə yaratmaq üçün elçi göndərdi və ondan rəqibinin yolunu kəsməsini istədi. Türk tarixçilərinin yazdıqlarına görə, Ərzurumda yerləşən Qara Osman İsgəndərə keçid vermədiyi üçün, 1435-ci ilin avqust ayında hər iki tərəf arasında şiddətli döyüş baş verdi. Bu döyüşdə Ağqoyunlular məğlubiyyətə uğradılar. Müharibə zamanı ağır yaralanan Qara Osman Ərzurumda vəfat etdi [5, s.116].

1436-ci ildə Teymuri Şahrux Azərbaycanı tərk etməmişdən əvvəl Qara Yusifin kiçik oğlu Cahanşahı (1436,1438-1467) Teymurilər dən asılı olmaq şərti ilə Qaraqoyunlu hökmdarı kimi tanıyır. Yalnız 1447-ci il Teymuri Şahruxun ölümündən sonra müstəqil siyasət yeritməyə başladı [7, s.383].

Bayandurlu Qara Osmanın varisi Əli bəyin (1435-1438) dövründə də iki tayfa arasında düşmənçilik qalmaqda idi. Cahanşah isə Qaraqoyunlu dövlətinin başçısı kimi öz hakimiyyətini möhkəmləndirmişdi. O, Bayandurlularla münasibətləri yaxşılaşdırmağa çalışırdı. Lakin onun bu istəyi həyata keçmir və Baharlı-Bayandurlu münasibətləri daha da kəskinləşirdi. Münasibətlərin kəskinləşməsinə səbəb isə Qara İsgəndərin oğlu Əlvənd Mirzənin Cahanşaha qarşı çıxaraq Bayandurlular sığınması olmuşdu [5, s.117].

1450-ci ilin əvvəllərində iki tayfa arasında münaqişə hələ də qalmaqda idi. Lakin şərqdən gələn təhlükə Cahanşahı məcbur etdi ki, Bayandurlularla tez bir vaxtda sülh bağlasın və bütün diqqətini Şərqə, yəni Xorasan hakiminə yönəltsin. Cahanşahın əsas məqsədi Bayandurlu Cahangiri öz nəzarətində saxlamaq və qərb cəbhəsindən gələn təhlükənin qarşısını almaq idi. Bunun üçün də nikah diplomatiyasına əl atır və öz oğlunu Cahangirin qızı ilə evləndirdi (Cahangirin razılığı əsasında). Lakin Cahangirin bu hərəkəti qardaşı Bayandurlu Həsənin narahatlığına səbəb olur. Buna görə də Həsən qardaşına qarşı mübarizəyə başlayaraq Diyarbəkri ələ keçirdi və Ağqoyunlu tax-tacını zəbt etdi. Bundan sonra Baharlı-Bayandurlu münasibətləri daha da gərginləşdi. Bunun səbəbi isə baş verən bu münaqişə zamanı Cahangirin Cahanışaha sığınması idi [5, s.118].

XV əsrin 50-ci illərinin sonu, 60-cı illərin əvvəllərində Qaraqoyunlu dövlətinin daxilində ixtişaşlar dərinləşir və Anadoludakı mövqeyi zəifləyirdi. Bundan istidafə edən Bayandurlu Həsən Baharlıların nəzarəti altında olan ərazilərdə öz mövqeyini gücləndirməyə başlayır [5, s.120]. 1458-ci ildə Bayandurlu Həsənin Gürcüstana hücum etməsi, artıq Cahanşahın hakimiyyəti altında olan ərazilərə iddia etdiyi mənasına gəlirdi [1, s.68].

Cahanşah 1458-ci ildə hərbi səfərdə ikən oğlanları Pirbudağın Bağdadda, digər oğlu Həsənəlinin isə Təbrizdə qiyam qaldırdığı xəbərini eşidir [8, s.384]. Qeyd etmək lazımdır ki, bu mübarizə zamanı Həsənəli Qaraqoyunluların əsas düşmənləri olan Bayandurlulara, Pirbudaq isə Teymurilərə arxalanırdı. Bunu həmin dövrdə Pirbudağın Teymuri hökmdarı ilə

yazışmalarından aydın görürük. Ancaq Cahanşah Həsənəlinin qiyamını 1459-cu ildə yatırır. Bundan sonra Həsənəli qardaşı Pirbudağa qoşularaq Cahanşahın qarşı birgə mübarizə aparırlar( bu vaxta qədər qardaşlar arasında dost münasibəti yox idi. Bu ittifaq sadəcə Cahanşaha qarşı birgə mübarizə aparmaq üçün idi). Cahanşah 1466-cı ildə Bağdadı uzun müddət mühasirədə saxladıqdan sonra oğlu Pirbudağı öldürməyə müvəffəq olmuşdu [1, s.69].

Yaranmış bu qarışıqlıqdan istifadə edən Bayandurlu Həsən vəziyyəti öz xeyrinə dəyişdi. O, Qaraqoyunluların hakimiyyəti altında olan torpaqlara hücum edərək öz ərazilərini genişləndirdi. Gürcüstana yenidən yürüşlər təşkil etdi və Ərzuruma hücum edərək Qarahisarı ələ keçirib, oğlu Uğurlu Məhəmmədə təhvil verdi. Baş verən bütün bu hadisələr isə Baharlı Cahanşahın qəzəbinə səbəb oldu [1, s.69].

Bununla Baharlı və Bayandurlu sülalələri arasındakı münaqişə kuliminasiya nöqtəsinə çatır. Artıq onlar arasındakı kiçik toqquşmalar böyük müharibəyə çevrildi. Tərəflər arasında həlledici döyüş 1467- ci ildə noyabr ayının 11- də Muş düzənində baş verdi.

1467-ci ildə Cahanşah Təbriz istiqamətindən Ağqoyunluların mərkəzi olan Diyarbəkir üzərinə hücuma keçdi. Bayandurlu Həsən bəy də öz növbəsində qüvvələrini Diyarbəkirdən Bingölə çəkdi [7, s.3]. Bayandurlu Həsən Qaraqoyunlular üzərinə birbaşa yürüş etməkdən çəkinirdi. Buna səbəb onun, Qaraqoyunlu ordusunun say baxımından daha üstün olduğunu düşünməsi idi. Buna görə də o, strateji baxımdan mühüm olan keçidləri nəzarətə götürdü. Bunun nəticəsi idi ki, Baharlı hökmdarı Cahanşah Bayandurlular üzərinə hücum etsə də uğur qazana bilməmişdi [5, s.124].

Qış yaxınlaşdığı üçün Cahanşahın adamları ona yürüşü müvəqqəti saxlamağın vacib olduğunu bildirdilər. Qışın sərt keçdiyini nəzərə alan Cahanşah bahar gələnə kimi hərbi yürüşü təxirə salmaq qərarına gəldi. Beləliklə Cahanşah, qoşunun böyük hissəsini geri qaytarır, özü isə Səncəqdə məskunlaşır. Lakin Bayandurlu Həsən heç də onun kimi fikirləşmir və 1468-ci ilin noyabrında 10-da Cahanşah eyş-işrətlə məşğul olarkən onun üzərinə qəfil hücum etdi. Bu hücum zamanı 30 ildən artıq Baharlılara rəhbərlik etmiş Cahanşah öldürüldü [5, s.124].

Muş döyüşü yalnız bir hərbi toqquşma olmaqla qalmadı, o, həm də regionda hakimiyyət dəyişikliyinin işarəsi oldu. Bayandurlu Həsənin rəhbərliyi altında Ağqoyunlular gücləndi, Qaraqoyunlular isə zəifləməyə başladı. Bu, sonrakı illərdə Azərbaycan türk dövlətçiliyinin formalaşmasında və türkmən sülalələrinin siyasi səhnənin əsas faktora çevrilməsində mühüm mərhələ hesab oluna bilər. Muş döyüşü bir daha onu göstərdi ki, həmin dövrdə etnik yaxınlıq siyasi birlik anlamına gəlmirdi.

Beləliklə Azərbaycan tarixində 50 ildən artıq fəaliyyət göstərmiş (1410-1468) Baharlı sülaləsinin hakimiyyətinə son qoyuldu. Eyni ərazidə, eyni mərkəzdə hakimiyyətə yeni bir türk sülaləsi olan Bayandurlular (1468-1501) gəldi.

**Nəticə**

Araşdırmadan aydın olur ki, Baharlı (Qaraqoyunlu) və Bayandurlu (Ağqoyunlu) tayfaları eyni etnik kökə oğuz mənşəyinə malik olsalar da, XIV-XV əsrlər boyu onların münasibətləri əsasən qarşıdurma və rəqabət üzərində qurulmuşdur. Münaqişələrin kökündə duran əsas səbəblər müxtəlif tarixçilər tərəfindən fərqli izah olunsa da, mövcud mənbələrin təhlili göstərir ki, mübarizənin başlıca motivi ərazi, siyasi üstünlük və strateji bölgələrə nəzarət uğrunda mübarizə olmuşdur. Dini fərqliliklərlə bağlı səsləndirilən iddialar isə dövrün siyasi təbliğatı ilə bağlı olmuş, real hadisələrdə həlledici faktor kimi çıxış etməmişdir.

## Ədəbiyyat

1. Azərbaycan XV-XIV əsrlərdə. (Həsən bəy Rumlunun Əhsənüt-təvarix əsəri üzrə), (1983), Bakı, Elm nəşriyyatı, s. 108
2. Azərbaycan tarixi. Yeddi clddə. III cild (XIII-XVIII əsrlər), (2007), Bakı, Elm, 592 s., İllustrasiya
3. Ebu Bekr-i Tihrani, (2014), Kitab-ı Diyarbekriyye, çev. Mürsel Öztürk, Ankara, Türk Tarih Kurumu
4. Karademir G., (2019), Karakoyunlular Tarihi: [Elektron resurs] / - 02 oktyabr, 2025. URL: https://www.academia.edu/45162096/KARAKOYUNLULAR_TARİHİ
5. Nəcəfli T. H., (2012), Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri (Müasir Türkiyə tarixşünaslığında), Bakı, Çaşıoğlu, 604 s.
6. Nəcəfli T. H., (2009), İlhan Erdem və Kazım Paydaşın Ağqoyunlu Dövləti Tarixi. Siyasət-Təşkilat-Kültür adlı monoqrafiyası haqqında bəzi qeydlər, Journal of Qafqaz University, s. 35–43, 26 noyabr
7. Uzungüngör A., (il göstərilməyib), Karakoyunlu Cihan Şah (1397-1467), Academia.edu
8. Yusifov Y., Bunyadov Z., (2007), Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək), I cild, Bakı, 720 s.

# RELATIONS BETWEEN BAHARLI AND BAYANDURLU: A STUDY IN A HISTORICAL-POLITICAL ASPECT

**A.R. Shahbalayeva**
Azerbaijan University, Jeyhun Hajibeyli 71, Baku, Azerbaijan

**Abstract:** The article examines the relations between the Baharlı (Qaraqoyunlu) and Bayandurlu (Ağqoyunlu) tribal associations, which played an important role in the history of Azerbaijan in the 14th-15th centuries, based on historical sources. The study shows that although both tribes belonged to the same Oghuz root, their relations were mainly characterized by territorial disputes, the struggle for political influence, and the desire to possess strategic regions. The study reveals that the Baharlı-Bayandurlu conflict was not only a tribal conflict, but also one of the main political processes that shaped the Azerbaijani statehood of the 15th century.

**Keywords:** Baharli (Qaraqoyunlu), Bayandurlu (Aqqoyunlu), 15th century Azerbaijani history, Battle of Mush, tribal relations.